# Aparılan islahatlar Azərbaycanın davamlı inkişafına yönəlib

**Ölkə başçısı İlham Əliyevin uğurla apardığı kadr və struktur islahatları onun xalqla bir yerdə olduğunu bir daha sübut etdi. Məlumdur ki, sosial-iqtisadi islahatlar bütün vaxtlarda və istənilən ölkədə çətin, məsuliyyət tələb edən işdir. Respublikamızda isə iqtisadiyyatımızın dinamik inkişafına və xalqımızın sosial rifahının yüksəlməsinə hesablanmış islahatlar konsepsiyası ulu öndərin sağlığında onun fərman və sərəncamları ilə 1993-cü ildə hazırlanmışdır. Beləliklə, çağdaş dünyada süni olaraq yaradılan və ölkələri cənginə alan iqtisadi böhrandan qurtuluş və inkişaf aparılan struktur, kadr və sosial islahatları müasir və müstəqil Azərbaycanın daim tərəqqi mərhələsinə qədəm qoymasını təmin edib.**

Ulu öndərin uzaqgörən siyasəti ilə əsası qoyulmuş bu islahatlar və struktur, kadr dəyişiklik konsepsiyası 2003-cü ildən başlayaraq ölkə rəhbəri İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilir. Ölkə rəhbərinin imzaladığı sərəncamlarla onlarca Dövlət proqramları işlənib hazırlanmış və həyata keçirilmişdir. Ölkə rəhbərimiz aparılacaq islahatların nəticələrini öncədən hesablamış və 2019-cu ilin xalqımızın sosial rifah halının yüksəliş ili olmasını xüsusilə diqqətə almışdır. Dünyanın əksər inkişaf etmiş ölkələrində, belə islahatlar heç də öncədən proqnozlaşdırılmış nəticəni vermir. Mən birmənalı olaraq ölkəmizdə aparılan islahatların uğurlu səbəbini möhtərəm Prezidentin məsələlərə kompleks yanaşmasında görürəm. Beləliklə, qədirbilən xalqımız ölkə rəhbəri İlham Əliyevin məqsədyönlü formada apardığı həm iqtisadi, həm sosial, həm də struktur və kadr islahatlarının reallaşmasından yaranan müsbət nəticəni çox gözləmədi. Yəni cari ilin birinci altı aylığında xalqımıza iki sosial paket təqdim olundu. Prezidentimizin xalqın sosial vəziyyətinin daha da yaxşılaşması üçün təqdim etdiyi sosial paketin necə universal olduğunu öz gözlərimlə təcrübədə gördüm.

Əməkhaqlarının minimum hissəsinin artırılaraq 130 manatdan 180 manatadək, pensiyaların minimum məbləğinin isə 116 manatdan 160 manatadək çatdırılması sayəsində bu gün həmin artımlardan əhalimizin 830 min nəfərinin yararlandığını qeyd etmək istəyirəm. Sayı 80 mindən bir az artıq olan müharibə veteranlarına aylıq təqaüdlər təsis olunmuşdur, sosial pensiyalar, təqaüd artımları və ya təyin olunan yeni təqaüdlər 300 min əlilliyi olan şəxslərdən ibarət əhalimizin 600 minədək hissəsinin güzəranını yaxşılaşdırmışdır. Məcburi köçkünlərin aylıq müavinətinin 50 faiz artırılması, 800 min vətəndaşın problemli kreditlərinin həlli, tələbələrin təqaüdlərində əhəmiyyətli artımların olması da bu paketə daxil idi. Qeyd edim ki, birinci paketlə cari ilin ilk rübündə həyata keçirilən artımların təmin olunması üçün əlavə olaraq dövlətin illik 1,9 milyard manat maliyyə vəsaiti ayrılmışdır və birinci sosial paket 3 milyona yaxın insanın rifahına mühüm təsir etmişdir. Prezidentin ikinci sosial paketi isə 18 iyun 2019-cu il tarixli sərəncamları minimum pensiyanın artırılması üçün əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində addımların ardıcıl atıldığını göstərdi. Minimum əməkhaqqının yenidən artırılması haqqında sərəncama görə, ölkədə minimum əməkhaqqının məbləği bu il sentyabr ayının 1-dən 180 manatdan 250 manatadək artırıldı. Beləliklə də bir il müddətində reallaşan iki sosial paket nəticəsində Azərbaycanda minimum əməkhaqqının məbləği 93 faiz artırıldı. Ölkəmizdə ilk dəfə olaraq minimum əməkhaqqının məbləği yaşayış minimumunu üstələdi. Yəni minimum əməkhaqqı yaşayış minimumundan 70 manat çox oldu. Bu, dövlətimizin sosial siyasətinin növbəti uğuru idi. Bununla da respublikamız minimum əməkhaqqının səviyyəsinə görə MDB-yə üzv ölkələrlə müqayisə edildikdə alıcılıq qabiliyyəti göstəricisinə görə 2-ci yerə sahiblənmiş oldu. Prezident İlham Əliyev sosial istiqamətdə yürütdüyü xarici siyasətdə də liderliyini qoruyub saxladı və bütün dünyaya bir daha sübut etdi ki, dövlətimiz sosialyönümlüdür.

Yeni Azərbaycan Partiyası hakim partiya olaraq, böyük siyasi mədəniyyət nümayiş etdirdi, ölkədə aparılan islahatlara öz lideri İlham Əliyevlə birgə getdi və zəruri addımı atdı. YAP təşəbbüslə çıxış və təklif etdi ki, Milli Məclis buraxılsın. Deyərdim ki, YAP qanunverici orqanın buraxılmasını, hazırda xalqımız tərəfindən sosial sifariş, ölkə rəhbərinin isə müasirlik və inkişaf üçün olduğunu yüksək mədəniyyətlə göstərdi.

Bildiyiniz kimi, dünyamız hazırda yeni, müasir çağırışlara pozitiv cavab tələb edir. Daima yeniləşən və müasir olan dünya ilə ayaqlaşmaq, eyni zamanda mədəni və milli adət-ənənələrimizi, mentalitetimizi qoruyub saxlamaq və yaşatmaq üçün güclü liderlərə həmişə ehtiyac olmuşdur. Bu lider ulu öndər ideyalarının layiqli davamçısı olan Prezident İlham Əliyev və gördüyü xeyirxah işlərlə bütün ictimai-siyasi fəaliyyəti dövründə xalqının böyük inamını qazanmış Birinci vitse-prezident Mehriban xanım Əliyevadır. Mehriban xanım Azərbaycan xalqı qarşısında böyük xidmətləri olan bir nəslin təmsilçisi olmaqla, ziyalı və milli ailədə yetişmişdir. O, Yeni Azərbaycan Partiyasının sədr müavini olaraq, Prezidentin ən sadiq silahdaşıdır. Xalqımız Birinci vitse-prezidentin təşəbbüslərini, gördüyü işləri ölkəmizin bütün sahələrində, xüsusilə səhiyyə və təhsil sahələrindəki islahatların mühüm mərhələsi kimi əhəmiyyətli olduğunu bilir və yüksək qiymətləndirir. Birinci xanımın bir sıra sosial, humanitar layihələri olduqca əhəmiyyətlidir. Yeni ailə quran şəxslərin nikahdan əvvəl icbari tibbi müayinədən keçməsi, talassemiya və hemofiliya xəstələrinə dəstək haqqında, valideyn himayəsindən məhrum uşaqların, əlil uşaqların təhsil haqlarının ödənilməsi, təhsil və səhiyyə sahəsinə diqqət ölkə Prezidentinin apardığı islahatların əsas ana xəttidir. Bu sahələr Birinci vitse-prezident Mehriban xanımın daima diqqət və qayğısı ilə əhatə olunmuşdur. O, ictimai-siyasi fəaliyyətinin bütün dövründə möhtərəm Prezidentlə çiyin-çiyinə dayanmış, xalqımız və dövlətimiz üçün taleyüklü məsələlərin həllində əlindən gələni etmişdir. Uğurla aparılan islahatlarda böyük rolu və hazırlanmasından tutmuş, həyata keçməsinədək iştirakçısı olduğu sosial proqram və layihələrdə səmimiyyəti və bacarığı ilə Mehriban xanım Əliyeva xalqımızın böyük inamını qazanmışdır. Mehriban xanım xarici arenada da Azərbaycanı uğurla təmsil edir. Heydər Əliyev Fondunun xəttilə reallaşdırdığı layihələr ölkənin imicinə mühüm töhfələr verib. Təsadüfi deyil ki, Rusiya prezidenti Vladimir Putin Mehriban xanımı cari ilin noyabr ayının 20-də Rusiya Federasiyasına səfəri zamanı ona Rusiya - Azərbaycan münasibətlərinin inkişafında və möhkəmlənməsində xidmətlərinə görə "Dostluq" ordeni ilə təltif olunması haqqında fərman oxunmasından sonra ali dövlət mükafatını təqdim edib. Rusiya Prezidenti qeyd edib ki, Mehriban xanım Əliyevanın bu ali dövlət mükafatına layiq görülməsi dövlətlərarası əlaqələrin bugünkü yüksək səviyyədə saxlanılması ilə əlaqədardır. Mehriban xanım iki ölkə arasında pozitiv əməkdaşlıq əlaqələrinin daim yeni mərhələyə qalxması üçün mühüm addımlar atır.

Beləliklə, Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan önəmli struktur, kadr dəyişiklikləri və sosial-iqtisadi islahatlar ölkəmizdə idarəetməni daha çevik, yığcam və səmərəli edəcəkdir.

**Vüqar MƏMMƏDOV,**
**Saatlı şəhər sakini,**
**Yeni Azərbaycan Partiyasının üzvü.**